

Şahnaz Şahin



## GÖYDƏ HAVALAR NECƏDİ?

Ürəyim üzülüb gedir
Arzular ömür xərcidi.
Yer üzünə yağış yağır,
Göydə havalar necədi?..

Gedən gedir qayıtmayır
"Əfqanım xəlq oyatmayır",
Burda ürək soyutmayır,
Göydə havalar necədi?..

Yenə könlü paradırmı?
Günlərini arıdırmı?
Tanrım insan yaradırmı?
Göydə havalar necədi?..

Ayaq saxla, atam oğlu,
Qoy bitirim bu nağılı.
Barı sən bir xəbər yolla,
Qalmayaq qolları bağlı
Bilək gündüzdü, gecədi
Göydə havalar necədi?..

## AĞRILAR AHLAR

Əlim-qolum bağlıdı.
Ətraf alaqaranlıq.
Sən demə, göylərdəymiş,
Elə əmin-amanlıq.

Baş kəsib ənam alır,
Dünya "nahaq" dünyası
Məni şeytan aldadır,
Tanrının nə günahı.

Dərdin daşını qaldır,
Tapdığın şey səninki
Bir gedib qayıtmışam
Bu yol təzə deyil ki...

İldırım vuran ağac,
Günahını bildinmi?..
Bu ağ, bu da qara qoç
De qərara gəldinmi?..

* * *

İşığı keçən adam
Xəyalında yüz kərə
o tərəf bu tərəfə
ayaqyalın, başaçıq
zülməti ölçən adam.

İynənin ucu boyda
Bir işıq işığında
Nə təngnəfəs qaçırsan
Hey yıxılıb qalxırsan

Nə yaxşı, nə yaxşı ki,
Sən Allahdan qorxursan,
Qaraya söyən adam,
Özünü döyən adam

Bir az da səbirli ol.
Dörd yanın kor quyudur
Bu dəyirman hələ ki,
Dən yox, səbir üyüdür.

## SƏHRADA TƏK AĞACAM

Səhrada tək ağacam
Bir Tanrıdır pənahım.
Zülmət gecədən keçib,
Gəlir mənim sabahım.

Küləklərlə danışır,
Quşlarla dərdləşirəm.
Kədərimdən güc alıb,
Daha mətinləşirəm.

Gündüz günəş yandırır,
Gecə ay qovur məni.
Hərdən fikirli görüb,
Buludlar qucur məni.

Yellər açır qapımı,
Göylər mənə baş çəkir.
Hansı əllər yoluma,
Durmadan hey daş çəkir.

* * *

Könlüm bir insafsızın
Nəvazişinə möhtac
Duman yerlə sürünür,
Dağ başı çənə möhtac

Demirəm yorulmuşam,
Demirəm bezdim, Allah!
Qulağım bir söz çalıb,
Görəsən düzdü, Allah?!

* * *

Daha müqəddəs nə qaldı,
Göyləri də gəzib gəldik.
Nə üzlə ayaq izini,
Ay üzünə yazıb gəldik.

İldən uzun oldu günlər,
Açılmadı kor düyünlər
Saçından asıldı günlər,
Bəxtimizdən küsüb gəldik.

Getdik aqillər yanına,
Düşdük Allahın yoluna,
Yer üzünün yalanına,
Ah, necə aldanıb gəldik

## TOYA GETMƏYİM GƏLMİR

Tanrım yaradıbdı qəmi,
Artıb saçlarımın dəni.
Toya çağırıbdı məni,
Toya getməyim gəlmir.

Deyirlər göy də deşilib,
Bu yalanı kim düşünüb.
Tənəli gözdən yaşınıb,
Toya getməyim gəlmir.

Qapımızı döyən kimdi,
Göydən yerə dəyən kimdi.
Gülən kim, ağlayan kimdi,
Toya getməyim gəlmir.

Yaman düşmüşəm çətinə,
Hədiyyəm yox bəy gəlinə
Baxıram gedib gələnə,
Toya getməyim gəlmir.

Dünya ötür-ötür imiş,
Bu qaç, bu qov nədən imiş.
Vayı toydan əzəl imiş,
Toya getməyim gəlmir.

## HARA GEDİM?..

Bu dünya mənlik deyilmiş,
Özülü başdan əyilmiş.
Suçu özündən böyükmüş,
- Hara gedim?..

Haqqı yorub yolda qoyur,
Dərisini çəkib soyur
Doğru sözü dəli deyir
- Hara gedim?..

Yarımacdı, yarımtoxdu,
Görən deyər dərdi çoxdu.
Sərgərdandı, yurdu yoxdu
- Hara gedim?..

Onu gördüm yuxu kimi,
Könül verdim doğru kimi.
Aldanmışam çoxu kimi.
- Hara gedim?..

Nə deyirsiz hal bilənlər,
Dünyaya halal gələnlər.
İndi yarımcan bədənlə
- Hara gedim?..